Adımız məfkurəmizdir
№31
2 – 8 sentyabr 2025-ci il
Türküstan
www.turkustan.az



Adilə Nəzərova
Filologiya üzrə
fəlsəfə doktor

# Tarixdən bu günə körpü

## (Ələsgər Siyablının "Yəhudilər və türklər: tarixi-etnik münasibətlərin xülasəsi" kitabı haqqında)



***Azərbaycanın müasir ədəbi fikir tarixində milli kimlik, tarix, etnik münasibətlər və mədəni qarşılıqlı təsirlər kimi mövzulara həsr olunmuş elmi-publisistik əsərlər çox da bol deyil. Amma Ələsgər Siyablının 2024-cü ildə nəşr olunmuş "Yəhudilər və türklər: tarixi-etnik münasibətlərin xülasəsi" adlı kitabı bu baxımdan mühüm boşluğu doldurur. Müəllif bu kitabda yalnız keçmişi izah etmir, həm də gələcək münasibətlər üçün mənəvi, mədəni, ictimai bir yol xəritəsi təqdim edir.***

***Kitabda müəllif yəhudi və türk xalqlarının qədim dövrlərdən bəri paralel mədəni və etnik yol keçdiklərini, bəzən bir-biri ilə qarşılaşdıqlarını, bəzən də bir-birindən təsirləndiklərini irəli sürür. Şumer sivilizasiyasından başlayaraq, Tubal-Kain, Yoval, xəzərlər və Turan konsepsiyası kimi anlayışlar üzərindən oxucuya bu iki xalq arasında mədəni inteqrasiya imkanları göstərilir.***

Kitab hazırkı türk-yəhudi münasibətlərin qarışıq izini sürmək, onları anlamaq, hətta bu münasibətləri yumşaltmaq üçün bir növ mədəni körpü kimi çıxış edir, oxucuya "biz rəqib yox, eyni tarix içində fərqli rollar almış mədəniyyətlərik" kimi çox mühüm bir mesaj verir.

Bu günki münasibətlərdəki sərt sözlər, diplomatik gərginliklər fonunda belə kitabın rolu böyükdür. Belə ki, kitab köhnə stereotiplərin qırılmasında, qarşılıqlı inamsızlığın aradan qaldırılmasında və yeni bir dialoq səviyyəsinin formalaşmasında mühüm vasitə ola bilər.

Ələsgər Siyablı kitabda yəhudi və türk xalqlarının keçmişdə düşmən yox, mədəniyyət daşıyıcısı və tərəfdaşı olduğunu göstərməyə çalışır. Bu, oxucularda empati hissini gücləndirir və "Əgər keçmişdə birgə yaşamaq mümkün olubsa, niyə bu gün olmasın?" sualını doğurur. Müəllifin yanaşması bəzi stereotipləri – məsələn, türklərin daim yəhudilərlə ziddiyyətdə olması fikrini – sarsıdır. Tarixi nümunələrlə qarşılıqlı anlaşmanın mümkünlüyü vurğulanır.

"Yəhudilər və türklər: tarixietnik münasibətlərin xülasəsi" kitabı, qədim dövrlərdən başlayaraq yəhudi və türkcə etnoslar arasındakı qarşılıqlı əlaqələrə elmi-populyar yanaşma ilə işıq tutur. Kitabın məzmunu və strukturu o qədər zəngindir ki, təhlil etmək üçün onu bir çox hissələrə ayırmaq gərəkdir. Və bu, bir məqaləyə sığacaq iş deyil.

Qısa şəkildə şərh etsək, deyə bilərik ki, "Yəhudilər və türklər: tarixietnik münasibətlərin xülasəsi" bir daha təsdiq edir ki, bugünün dünyasında siyasi-diplomatik münasibətlər çox vaxt mənfi stereotiplərin, qırılmış dialoqun və yalan tarix təsvirlərinin əsiri olur. Xüsusilə Yaxın Şərqdə və Cənubi Qafqazda türk və yəhudi xalqları arasında müşahidə edilən münasibətlərdə müəyyən gərginliklər, qısqanclıqlar, təzyiqlər hakimdir. Bu qarşıdurmalar əsasən Gürcüstanda yaşansa da, yəhudilərə qarşı talanlar provoslav Rusiyasında da tez-tez baş verirdi, hətta onlara Moskva və Peterburq kimi şəhərlərdə yaşamaq qadağan olunmuşdu.

***Gürcüstanda yəhudilərin tarixi 2600 ildən çoxdur. Adətən sülh içində yaşayıblar, amma orta əsrlərdə, xüsusən də feodal dövründə bəzi yəhudilər torpaq sahiblərinin asılılığında yaşayırdı, "kölə-yəhudi" anlayışı mövcud idi. Bu isə sosial gərginliklər doğururdu. Gürcü pravoslav kilsəsinin təsiri altında müəyyən dövrlərdə dini təzyiqlər də olub.***

***Orta əsrlərdə ticarət sahəsində rəqabət səbəbindən bəzən gərginlik yaşanıb. Xüsusən İrəvan, Gəncə, Tbilisi kimi şəhərlərdə həm erməni, həm yəhudi tacirlər fəaliyyət göstərirdi. XIX–XX əsrlərdə isə erməni millətçi təşkilatları bəzən yəhudiləri də "yad element" kimi görürdülər, lakin açıq antisemitizm geniş vüsət almamışdı.***

Azərbaycanda isə bəzən kiçik anlaşılmazlıqlar baş versə də, bu, heç vaxt etnik müstəviyə keçməyib.

"Bu münasibətlərin kökü yalnız bugünün siyasi hadisələrində deyil, həm də uzun, mürəkkəb və çoxqatlı tarixdə gizlənib.

Kitab maraqlı, geniş spektrli yanaşmalar təqdim edir. Onlardan bəzilərini diqqətə çatdıraq:

*Müəllif Şumerlərdən başlayaraq sivilizasiyaların formalaşmasını və bu qatlarda yəhudilərlə türklərin qarşılıqlı təsirini izah edir.

* Tövrat hekayələrinə əsaslanan türanyəhudi əlaqələrinə dair hipotezlər təqdim edilir – məsələn, Lamekin oğulları olan Tubalkain və Yuvalın həm turan, həm də yəhudi etnogenezində rol oynaması haqqında fikirləri təqdim edir.

* F.Lenorman, E.Dyakonov və E.Eykstadt kimi Avropa tarixçilərinin arxeoloji və linqvistik məlumatlarına istinad edilərək metal emalı və ilkin dövlət quruluşlarının turanlılarla əlaqəsi vurğulanır.

* Kitab qeyd edir ki, "əsas dəmirçi" Tubalkain türklərin əcdadıdır və bu, texnologiya köçü nöqteyi-nəzərindən əhəmiyyət kəsb edir.

* XIX əsr Avropa katolik ideoloqu Kardinal Henri Nevmanın irq nəzəriyyəsinə istinad edilərək, iskitlərdən monqollara uzanan geniş türklər ailəsi təsvir edilir.

* Kitabda qədim dövrlərdən başlayaraq yəhudi və türk etnosları arasındakı etnik, mədəni və tarixi əlaqələri geniş spektrdə araşdırılır. Müəllif xüsusilə Şumer sivilizasiyasından tutmuş zamanımıza qədər davam edən qarşılıqlı təsirləri sistematik şəkildə təqdim edir. Kitabın əsas məqsədi bu əlaqələrin etnogenez, mədəniyyətlərarası inteqrasiya və tarixi yaxınlıq sahələrindəki rolunu üzə çıxarmaqdır.

* Kitabda ətraflı olaraq yəhudilərin Assuriya və Babil imperiyaları tərəfindən sürgün edilməsi, xüsusilə itirilmiş qəbilələrin müxtəlif etnik qruplarla qarışmasının türk-xəzərlər daxil olmaqla bir sıra xalqlara təsirindən bəhs edilir.

* Ə.Siyablı Tövrat hekayələrindən və digər mifoloji mətnlərdən çıxış edərək Tubal-Kain kimi fiqurların türk etnogenezində rol oynadığını irəli sürür. O, bu konsepsiyanı bir neçə Avropa klassik nəzəriyyəsinə istinad edərək genişləndirir.

* Kitab qədim dövrlərə (Şumerə yaxın) qədər uzanaraq uzun müddətli etnik əlaqələri sistemli şəkildə təqdim edir.

* Kitabdakı multidissiplinar yanaşma – Arxeologiya, dilçilik, mifologiya və dini mətnlər sintez edilərək yeni baxış bucaqları formalaşdırılır.

**** Mövzu XIX–XX əsr Avropa tarixçilərinin fikir və nəzəriyyələri ilə bağlanır, bu da kitabın nəzəri çərçivəsini zənginləşdirir.***

**** Tarixi etno-mifoloji motivləri interpretasiya edərkən müəllifin milli və turancı tendensiyası görünsə də, bu, obyektivliyi azaltmır.***

**** Kitab ümumilikdə qədim etnik əlaqələrin sistemliliyi və klassik nəzəriyyələrin perspektivi ilə zəngin bir tədqiqat əsəridir və yalnız akademik yox, elmi-populyar oxucu auditoriyası üçün də yararlıdır.***

(ardı gələn sayımızda)




Oxu, oxut, abunə ol!